# İşğalçı Ermənistan vandalizminə görə cavab verəcək





Azərbaycanın sosial-iqtisadi sahədə qazandığı uğurlar Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi düşünülmüş, məqsədyönlü siyasətin məntiqi nəticəsidir.

Müasir ordu quruculuğu istiqamətində mühüm addımların atılması, Azərbaycan Ordusunun dünyanın 50 ən güclü orduları sırasında olması da dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Məhz bunların sayəsində indi Ordumuz döyüş meydanında düşmənə sarsıdıcı zərbələr endirir, illərdir yağı tapdağında olan doğma torpaqlarımızı işğaldan azad edir.

Prezident bu gün də usaqgörənlik, vətənpərvərlik, qətiyyət, əzm, prinsipiallıq, dönməzlik nümayiş etdirir. Azərbaycan xalqının haqq işi uğrunda əsl fədakarlıq nümunəsi ortaya qoyur. Bütün çətinliklərə, xarici qüvvələrin təzyiqinə cəsarətlə sinə gərir və onları dəf edir.

Dövlət başçısı Azərbaycan xalqına müraciətlərində, eləcə də digər çıxış və müsahibələrində Ermənistanın müharibə aparmaq üçün bu qədər silah-sursatı haradan aldığını soruşur. Əlbəttə, bu, dərin məna daşıyan bir sualdır və təbii ki, deyilən söz öz ünvanını tapır. Axı Ermənistan yoxsul bir ölkədir.

Ermənistanda əhali ac-yalavac yaşayır. İqtisadiyyat gündən-günə daha da çökür. Vəziyyətin yaxşılaşacağına isə güman yoxdur. Çünki bu ölkə regionda gerçəkləşdirilən qlobal layihələrin hamısından kənarda qalıb. Azərbaycan işğalçılıqla, vandalizmlə məşğul olan mənfur qonşusunu regiona xeyir-bərəkət gətirən neft-qaz ixracı marşrutlarından, dəmir yolu xətlərindən, nəqliyyat dəhlizlərindən kənarda qoyub və biz bunu gizlətmirik. Azərbaycan Prezidenti dəfələrlə bəyan edib ki, ermənilər işğal etdikləri torpaqlarımızı boşaltmayınca vəziyyət bu cür də qalacaq.

Belə isə bu faşist xislətli ölkə hansı vəsaitlə müharibə aparır? Sirr deyil ki, Ermənistan havadarları üçün bir oyuncaq, xaricdə yaşayan varlı ermənilərin əlinə baxan bir dilənçidir. Cinayətkar hərbi-siyasi rəhbərliyi bu ölkəni işğalçılığa, cinayətə, aclığa, səfalətə sürükləyib. Zorla orduya göndərilən erməni cavanları, eləcə də qadınlar, yeniyetmələr, qocalar özgə torpağında ucuz, urvatsız ölümə məhkum edilirlər. Odur ki, erməni döyüşçülər meydandan qaçır, ölkəsinin əyri-üyrü yollarla əldə etdiyi silahı atıb gedir, məğlub olurlar.

Məğlubiyyətin acısının və xəcalətinin əvəzini isə faşist xislətli Ermənistan cəbhə zonasından yüz kilometrlərlə aralıda yerləşən ərazilərə qadağan olunmuş silahlardan atəş açaraq Azərbaycanın dinc əhalisindən, o cümlədən gül üzlü körpələrdən çıxır.

"Sual olunur: bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Ermənistanın hərbi büdcəsi bəlli, Ermənistanın dövlət büdcəsi də bəlli. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Bu ölkənin sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır, bu da bank rezervləridir. Yəni bu, sərbəst vəsait deyil. Hansı pulla bu silah və texnikanı alır?.. Sual olunur, kim onları silahlandırır? Bəzi hallarda bizə qarşı iradlar irəli sürülür ki, biz silahlanırıq, biz silah alırıq və bu, elə bil ki, vəziyyəti gərginləşdirə bilər, vəziyyəti məqbul olmayan məcraya istiqamətləndirə bilər. Ancaq sual olunur, bəs Ermənistan silahlananda? Bəs, bu kasıb, yoxsul ölkədə bu qədər silah-texnika haradandır və bu gün də onlara qaçaq yollarla, qaçaqmalçılıq sxemləri əsasında silahlar, texnika göndərilir və çox təhlükəli, böyük dağıdıcı gücə malik olan texnikalardır. Ona görə biz bu suallara cavab istəyirik və əminəm ki, biz bu cavabı alacağıq", - deyə dünyaya əsl həqiqəti bəyan edir mərd, məsləkindən dönməz Prezidentimiz.

Almaniyanın ARD televiziya kanalının müxbiri Prezidentimizlə müsahibəsində deyir: "Bu sualı davamlı olaraq verən şəxsdə müəyyən mənada bir cavab olmalıdır".

Prezident isə yenə də öz dəyişməyən mövqeyindən çıxış edərək bildirir: "Cavabım olsaydı, soruşmazdım. Hələ də soruşuramsa, o deməkdir ki, cavab almamışam. Biz məhv etdiklərimiz barədə minimum ilkin hesablama aparmışıq, yeri gəlmişkən, mən bizim məhv etdiklərimizin hamısını açıqlamamışam. Bu, olacaq. Bizim məhv etdiyimiz və qənimət kimi götürdüyümüz sursatın dəyəri 2,7 milyard dollardır. Bu pul haradan gəlir? Ermənistan kasıb ölkədir. Onun büdcəsi 2 milyard dollardan azdır. Onun xarici borcu 8 milyard dollardır... Beləliklə, mən soruşuram, amma heç bir cavab verilmir. Ona görə də, soruşmağa davam edəcəyəm".

Uzun illərdir Qarabağ torpağını işğal altında saxlayıb onun "sinə"sinə dağ çəkən, Azərbaycanın dinc əhalisinin günahsız qanına bu və digər şəkildə bais olanlar hələ çox suallara cavab verməli olacaqlar. Təkcə Azərbaycan xalqı və onun müdrik Prezidenti qarşısında deyil, həm də ulu tarix qarşısında... İndi isə törətdikləri vəhşiliklərə, vandalizm və cinayətlərə görə döyüş meydanında cəzalarını alırlar. Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi müzəffər Azərbaycan Ordusu onlara kimin kim olduğunu sübut edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.- 3 noyabr.- S.8.